# XX əsrin soyqırımın finalı - Xocalı



*Mais* Əmrahov
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor***

*(Əvvəli ötən sayımızda)*

Birinci batalyon komandiri, polkovnik Moiseyev, II batalyon komandiri, mayor S.Ohanyan, III batalyon komandiri, mayor E.A. Nabokix və b. Soyqırımı əvvəlcədən planlaşdıran antiazərbaycan qüvvələri xüsusi vəhşilikləri ilə seçilənləri mükafatlandırmışlar. 13 nəfərlik Babayevlər ailəsini məhv etdiyi üçün Çitçiyana Fransa erməni disporu tərəfindən 150 min dollar pul və "Kilsə mükafatı", rus zabiti Yevgen Qolubevə üstündə "ASALA" yazılmış 25 qramlıq qızıl orden və 5 min dollar, Anastas İvanova 10 min dollar və "Hunday" markalı maşın verilmişdir.

Türkiyə erməni diasporunun qəzeti "Jmanak" 1992-ci il fevral hadisələrini, qanlı qırğını şərh edərək 24 fevral tarixli nömrəsində yazırdı: "...Biz vəcdə gəldik. Ermənilərə öz dədə-baba torpaqları uğrunda vuruşmaq üçün güc və qüvvət verilmişdi. Bu işdə Allahın razılığını görürdük və vuruşurduq. Azərbaycanlılar isə bizim qədər torpaq istəyə bilmədi. Məhəbbət və Vətən sevgisi olduğu üçün biz qalib gədik. Bakıdan da xəbərdarıq. Orada torpaq uğrunda yox, sülalə və vəzifə, səltənət və şöhrət uğrunda daha çox güc sərf olunur. Çünki Bakıda da bilirlər ki, bu torpaqlar bizimdir, bizim dədə-babalarındır... Bu barədə rus zabti Vladimir Savelyev adlı birisi meydanda atılan topların yanında bizdən sorğu etdi. O, bizim müxbirdən tələb edirdi ki, bu yerlərdən çıxıb getsin..."

Fransada çıxan "Frans katolik-ekklezya" aylıq jurnalının 1992-ci il 12 mart nömrəsində "Hücumdan öncə" yazısını çap etdirən erməni jurnalisti Berain Siracyan yazır: "...Xocalını gözlərimlə gördüm. Döyüşən, hər qarış torpaq uğrunda vuruşan artsaxlıların igidlikləri məni valeh etdi. Amma mən torpaq uğrunda gedən vuruşmanın bu tərzdə aparılmasının tərəfdarı deyildim...Hər yerdən qan iyi gəlirdi. Qar üstündəki, buz üstündəki qalaqlanmışkimsəsiz, sahibsiz cəsədlərdən heç vaxt Azərbaycan tərəfi, sabahkı nəsilər susmaz. Bəs sabah...Biz tənha qala bilərik...Digər tərəfdən, Xocalıda vuruşanların, erməni qardaşlarımın gözlərindəki alovun sönməyəcəyinə də şübhə yoxdur. Bu alov vətən torpağı üçün yandırılmış ocağın alovlarıdır. Belə alovlar isə heç vaxt sönmür..."

Xocalı faciəsi dünya mətbuatında geniş işıqlandırıldı. "The Washington Post"qəzeti 28 fevral 1992-ci il tarxli sayında Tomas Qolun (Ağdam, Azərbaycan) "Qaçqınlar Ermənistanın hücumları nəticəsində yüzlərlə insanın öldüyünü deyirlər" materialını dərc etmişdir.Materiualda bildirlirdi ki,Dağlıq Qarabağın müharibə zonasının şərqində yerləşən şəhərin baş məscidinin rəsmilərinin bildirdiyinə görə, Ermənistan silahlı qüvvələrinin çərşənbə günü ələ keçirdikləri müharibə zonasındakı Azərbaycan şəhərindən gətirilən 27 cəsədi bu gün dəfn ediblər. Anklavın paytaxtı Stepanakertdən şimal-şərqdə yerləşən, 6000 nəfər sakini olan Xocalıdan qaçan qaçqınlar qadın və uşaqlar da daxil olmaqla, 500-ə qədər insanın hücum zamanı öldürüldüyünü deyirlər. Bu şəraitdə nə qədər insanın öldüyünü təxmin etmək mümkün deyildi. Ağdam məscidinin nümayəndəsi Səid Muan oğlu Sadıqov deyir ki, çərşənbə günündən etibarən qaçqınlar məscidə Xocalı faciəsinin 477 qurbanının adını yazdırıblar.

...Bu gün məsciddə 7 cəsəd var idi, onların ikisi uşaq, üçü isə qadın idi. Bir nəfərin yaxın məsafədən sinəsinə açılan atəş nəticəsində öldüyü görünür. Çoxu süngü ilə yaralanıb, digər 120 qaçqın isə Ağdam xəstəxanasında müalicə olunur. Ağdama çərşənbə günü gecə gələn Raisə Aslanova ermənilərin Xocalıya hücum zamanı "aramsız olaraq atəş açdıqlarını" bildirir. O, həyat yoldaşının və qaynının öldürüldüyünü, qızının isə itkin düşdüyünü dedi.



Qarabağın dağlıq ərazisindən bura gələn qaçqınlar sırasında erməni gizirlərinin onları "müsəlman olduqlarına" görə döydüyü üçün hərbi hissəni tərk edərək Xocalıya sığınan keçmiş SSRİ Daxili İşlər Nazirliyi qüvvələrinin iki nəfər türkmən əsgəri də vardı. Onlar xidmət etdikləri 366-cı alayın Xocalını ələ keçirən Ermənistan silahlı qüvvələrinə dəstək göstərdiyini bildirirlər. Həmin əsgərlər qadınlara və uşaqlara xilas olmaqda kömək etdiklərini deyirlər: "Bir qrup insanı dağların arası ilə keçirərkən ermənilər bizi görüb atəş açmağa başladılar. On iki nəfər öldürüldü".

Tomas Qoltzun"The Times"qəzetinin 1 mart 1992-ci il nömrəsindəki dərc olunan "Erməni əsgərləri qaçan yüzlərlə ailəni qırır" başlıqlı yazısında bildirilir ki, keçmiş Sovet İttifaqının respublika-larını bürüyən zorakılıq dünən müharibə vəziyyətində olan Dağlıq Qarabağda yüzlərlə qadın və uşağın soyuqqanlı şəkildə qətlə yetirilməsi nəticəsində yeni mərhələyə qədəm qoydu. Şahidlərin bildirdiyinə görə, erməni əsgərləri əksəriyyəti qadın və uşaq olan 450-dən çox azərbaycanlını hücum zamanı şəhərdən qaçarkən öldürmüş və süngüyə keçirmişdir. Yüzlərlə, ehtimal ki, minlərlə şəxs itkin düşmüş və ölmüşdür. Şaxtalı havada qarlı dağları keçərək Azərbaycanın Ağdam şəhərinə çata bilən insanlar qırğının çərşənbə günü səhər saatlarında 1500-dək əhalinin bir dərədə erməni əsgərləri tərəfindən tələyə salınması zamanı baş verdiyini bildirirdilər.Hücum edənlər qadın və uşaqları qoruyan əsgər və könüllülərin əksəriyyətini öldürdülər. Daha sonra onlar öz silahlarını qorxu içində olan qaçqınlara tərəf çevirdilər. Az sayda sağ qalanlar baş verən hadisələri sonradan bu cür təsvir edirdi. "Əsl qırğın onda başladı, - sağ qalan üç əsgərdən biri olan Azər Hacıyev dedi, - ermənilər əvvəlcə atəş açdılar. Sonra süngü və bıçaqları ilə insanları doğramağa başladılar".

Tomas Qoltz bildirirdi ki, şəhərdən çıxan azərbaycanlılar qırğına məruz qaldılar. Sağ qalanlar 2000 insanın çətin şəraitdə itkin düşdüyünü, bəzilərinin qaça bildiyini, çoxlarının isə yaralanaraq və ya soyuqdan öldüyünü dedilər. Təxminən 500 nəfər öldürülüb və bu, mülki əhali erməni mövqelərindən uzaqlaşarkən, Əsgəran dərəsindən Ağdama gedən 10 kilometrlik yolda baş verdi. Sağ qalan Asif Usubovun dedikləri: "Biz onlara təpəlikdən baxan zaman mayor qadın, uşaqlar və digər mülki şəxslərlə birlikdə dərəyə enmişdi... Aşağıya, dərənin ortasına enəndə ermənilər yamaclardan atəş açdılar. Mayor başından vuruldu və yerində həlak oldu. 30 əsgər və hava limanının 19 mühafizəçisi öldürüldü. Qadın və uşaqlar müdafiəsiz qaldı". Sonra ermənilər onları güllələməyə və süngüləməyə başladılar.Dünən axşamadək Ağdamdakı meyitxanada 479 ölü qeydə alınmış, 29 cəsəd isə dəfn edilmişdi. Hələ dəfn olunmamış 7 cəsəddən ikisi uşaq, üçü qadın idi. Ağdam xəstəxanası yaralılarla dolmuşdu. Həkimlər 140 xəstənin güllə və ya dərin bıçaq yarası aldıqlarını bildirdilər.Onlar heç Ağdamda da təhlükəsiz şəraitdə deyildilər. Cümə günü axşam şəhərə atılan mərmilər bir neçə binanı dağıtdı və on beş nəfər öldü.

"The Times" 2 mart 1992-ci il tarixli nəmrəsindəki "Cəsədlər Qarabağdakı təpələrdə qalaqlanmışdı"yazıda oxuyuruq: Anatol Liven erməni qoşunları tərəfindən qaçqınların kütləvi şəkildə qətlə yetirilməsini araşdırmaq üçün əraziyə səfər edən zaman atəşə tutuldu. Dağlıq Qarabağın qarla örtülmüş təpələrinə endiyimiz zaman, biz ətrafa səpələnmiş cəsədləri gördük. Açıq-aşkar göründü ki, insanlar xilas olmaq üçün qaçdıqları zaman atəşə məruz qalmışlar. Keçdiyimiz yerlər barədə çəkilən və sonra jurnalistlərə göstərilən kadrlarda təpələrə səpələnmiş onlarla cəsəd görünürdü. Azərbaycanlılar iddia edirlər ki, keçən həftə ermənilər tərəfindən işğal edilən Xocalı şəhərindən qaçan 1000-dək azərbaycanlı kütləvi qırğında qətlə yetirildi. Təxminən 4000 nəfərin isə yaralandığı, soyuqdan donduğu və ya itkin düşdüyü güman edilir.Mülki helikopter dağlara enərək kütləvi qırğın yerlərində cəsədləri yığırdı. Helikopter 4 cəsədi götürdü, azərbaycanlı kinooperator bu və əvvəlki çəkilişlər zamanı təpələrdəki onlarla meyiti lentə almışdı. Ağdamdakı aerodromda mülki helikopterlə gətirilən cəsədlərə nəzər saldıq. İki nəfər yaşlı kişi və bir balaca qızın bədəni qan içində idi, ayaqları isə soyuqdan donmuş və əzabdan bükülmüşdü. Onları güllələmişdilər.

"The Washington Times" 2 mart 1992-ci il tarixli nömrəsində ermənilərin qəfil hücumları nəticəsində azərbaycanlıların öldürüldüyünü və didərgin salındığını, Xocalının minlərlə sakininin təxminən 1000 nəfəri çərşənbə axşamı baş verən hücumda erməni ordusu tərəfindən qırğına məruz qaldığını, Azərbaycan televiziyası Xocalı şəhərinin ərazisindən daşınan cəsədlərlə dolu yük avtomobillərini göstərdiyini yazırdı.

"The New York Times", 3 mart 1992-ci il tarixli nömrəsində yazırdı ki, Ermənistan Respublikası keçən həftə onun hərbçiləri tərəfindən azərbaycanlıların məskunlaşdığı Xocalı şəhərində 1000 nəfərin öldürülməsini və qarla örtülmüş dağ keçidləri ilə xilas olmaq üçün qaçan kişi, qadın və uşaqları qırdığını bir daha inkar etdi. Lakin əraziyə səpələnən onlarla cəsəd qırğın barədə Azərbaycan tərəfinin xəbərlərinin doğru olduğunu göstərir.Əraziyə helikopter ilə qısa səfər edən Azərbaycan rəsmiləri və jurnalistlər başlarının arxa hissəsi parçalanmış üç uşaq meyitini gətirdilər. Onlar ermənilərin açdığı atəş səbəbindən cəsədlərin çoxunu götürə bilmədiklərini dedilər: "Qadın və uşaqların başlarının dəriləri soyulub. Cəsədləri götürmək istədikdə ermənilər atəş açmağa başladılar".Ağdamda milis rəisi olan Rəşid Məmmədovun dediklərindən: "İnsan cəsədləri əraziyə səpələnmişdi, heç faşistlər bu cür vəhşilik törətməyiblər". Ağdam yaxınlığında olan fotoqraf Frederik Lengeyn dedi ki, azərbaycanlıların cəsədləri ilə dolu iki yük avtomobili görüb: "İlk avtomobildə 35, güman ki, ikincidə də elə o qədər cəsəd var idi. Bəzilərinin başı kəsilmiş, əksəriyyəti yandırılmışdı".

***"The Times"in 3 mart 1992-ci il tarixli sayında Anatol Liven (Ağdam, Azərbaycan) yazırdı:*** Kiçik dərə və onun ətrafındakı yamac boyunca qurumuş otlar və kolluqlar arasında ötən çərşənbə günü Ermənistan qüvvələri tərəfindən törədilmiş qırğın zamanı qətlə yetirilmiş azərbaycanlıların cəsədləri səpələnmişdir.Biz dünən MDB-nin sonuncu qüvvələri regionu tərk etməyə başlayan vaxt helikopter ilə bu əraziyə endik. Onlar ərazini müharibə tərəflərinin müqaviməti olmadan tərk edirdilər. Sovet qüvvələrinin Əfqanıstandan çıxarılmasına rəhbərlik etmiş general Boris Qromov onların çıxmasını asanlaşdırmaq üçün Stepanakertə gəlmişdi. Azərbaycanlılara öz meyitlərini götürməyə, təpələrdə və meşələrdə gizlənən qaçqınlara kömək etməyə imkan yaratmaq üçün yerli səviyyədə atəşkəs elan olundu. Eyni zamanda, yaxınlıqda olan erməni mövqelərini müşahidə edən iki hücum helikopteri davamlı olaraq səmada dövrə vururdu. Ümumilikdə, ərazidə 31 meyit vardı. Keçən beş gün ərzində Ağdama ən azı əlavə 31 meyit aparılmışdı. Bu rəqəmlərə çərşənbə axşamı ermənilər tərəfindən Azərbaycan şəhəri olan Xocalıya hücum zamanı öldürülən mülki əhali daxil deyil. Gördüyümüz 31 cəsəddən yalnız biri polis, ikisi könüllü müdafiə dəstəsinin geyimində idi. Qalanları - səkkiz qadın və üç azyaşlı da daxil olmaqla, mülki şəxslər idi. Ehtimal ki, ailə olan iki qrup bir yerdə öldürülmüşdü, uşaqlar analarının əllərindən yapışmışdı.

***(Davamı 5-ci səhifədə)***

*(Əvvəli 4-cü səhifədə)*

***Stefan Bentura "The Irish Times-"in 3 mart 1992-ci iltarixli nömrəsində Ağdamdan xəbər verirdi:*** Ermənilərin Dağlıq Qarabağa hücumundan xilas olarkən qırğına məruz qalan azərbaycanlıların təhqir edilmiş cəsədləri soyuqdan qurumuş, hücumdan təxminən bir həftə sonra qarla örtülmüş yamaclara yapışmışdı. Ağdamdan helikopterlə əraziyə gələn jurnalistlər 31 cəsəd saydılar, onların bir çoxuna yaxın məsafədə baş hissədən atəş açılıb, bəzilərinin isə başının dərisi soyulub. Ölmüş kişi, qadın və uşaqların bəzilərinin barmaqları qoparılıb.Könüllülər daha 20 cəsəd topladılar və onların Ağdamdakı məscidə gətirilməsi nəzərdə tutulur. Azərbaycanın hakimiyyət orqanlarının və qaçqınların Ermənistan qüvvələrinin Xocalıya hücumu zamanı 1000-dən çox insanın ölməsi ilə bağlı ittihamları fonunda, jurnalistlər Əsgəran tərəfdə yerləşən təpələrdə meyitlər görmüşlər.

***"The Independent" in 5 mart 1992-ci il tarixli nömrəsində Helen Vomakın dərc olunmuş "Qaçqınlar və təzə məzarlar ermənilərin qırğın törətdiyini təsdiqləyir, azərbaycanlılar meşədə qətlə yetirilir"yazısındaoxuyuruq:*** "Qurbanların dəqiq sayı bilinmir, lakin ötən həftə Dağlıq Qarabağın qarlı dağlarında Ermənistan silahlıları tərəfindən azərbaycanlı mülki şəxslərə qarşı qətliam törədilməsinə dair şübhə ola bilməz. Ağdamda sığınacaq tapan Xocalıdan olan qaçqınlar düşmənin onlara hücumuna, ətraf meşələrdə xilas olmaq üçün qaçanları necə təqib etdiyinə və öldürdüyünə dair birmənalı ifadələr söyləyirlər. Çərşənbə axşamı gecə saatlarında Ağdama çatdıqda məsciddə bizə göstərilən təhqir edilmiş dörd cəsəddən əlavə, dünən mən bir qəbiristanlıqda 75 yeni qazılmış məzar gördüm. Mən, həmçinin dəmiryolu stansiyasında vaqondakı müvəqqəti hospitallarda güllə yarası almış qadınlar və uşaqlar da gördüm. Azərbaycan şəhəri olan Xocalıda 6000-ə yaxın əhali yaşayırdı. Ağdamın polis komandiri Rəşid Məmmədov yalnız 500 nəfərin qaça bildiyini söylədi. Qalanları haradadır? Bəziləri bəlkə də əsir götürülüb və ya harasa qaçıblar. Bir çox cəsəd hələ də dağlarda idi, çünki azərbaycanlıların onları gətirmək üçün kifayət qədər helikopteri yoxdur. Onun fikrincə, 1000-dən çox insan təxminən 10 dərəcə şaxtada donaraq həlak olub.

Karey Qoldberqin "Los Angeles Times" in 5 mart 1992-ci il tarixli "Kameramanın hönkürtüləri ilə qətliamın dəhşətləri yayımlandı" başlıqlı yazısı ermənilərin Xocalıda törədiyi qətliamın əsil simasından bəhs edirdi. Yazıda oxuyuruq: Moskva - kamera solmuş kollardan qırmızı qış geyimində olan azyaşlı uşağın donmuş cəsədinə, sonra isə üzləri qanlı, rəngsiz halda olan beş ölü qadına tuşlanarkən kameramanın hönkürtüləri fon əvəzinə səslənirdi. Azərbaycan televiziyasının müxbiri Çingiz Mustafayev çərşənbə günü Moskvada keçirilən mətbuat konfransında gördüyü səhnənin dəhşətlərindən danışarkən, beynəlxalq ictimaiyyəti diqqəti Xocalıda Ermənistan hərbçiləri tərəfindən keçən həftə törədilmiş qırğına yönəltməyə çağırdı. "500 metr radiusu olan ərazi meyitlərlə dolu idi," - Mustafayev Azərbaycan rəsmilərinin qətliam adlandırdığı hadisəni təsvir edərək söylədi.

"Sandi Tayms" qəzeti (London) 1 mart 1992-ci il tarixli sayında erməni əsgərlərinin minlərlə ailəni məhv etdiyi, "Faynenşl Tayms" qəzeti (London) 9 mart 1992-ci il tarixli sayında ermənilərn Ağdama tərəf gedən dəstəni güllələdiyini, 1200-ə qədər azərbaycanlını məhv etdiyini yazmışlar. "The Sunday Times" 1 mart 1992-ci ildə yazırdı ki, Ağdam xəstəxanasında dəhşətli mənzərə yaranmışdı. Həkimlər qırğından qaça bilən 140 xəstənin əksəriyyətinin güllə yarası aldığını bildirirdilər. Cümə günü axşam 150.000 əhalidən şəhərə iki raket düşmüş, bir neçə binanı dağıtmış, bir nəfər isə ölmüşdü. "Le Mond" qəzeti (Paris) 14 mart 1992-ci il tarixli sayında erməni vəhşiliyndən bəhs edərək qətlə yetirilənlərin başlarının kəsildiyini, kişilərin skalplarının soyulduğunu qeyd etmiş, "Faynenşl Tayms" (London) qəzeti 14 mart 1992-ci il nömrəsində general Polyakova istinadən 366-cı alayın tərkibində 103 nəfər erməni hərbçisinin olduğunu yazmış, "Varel aktuel" jurnalı (Paris) 14 mart 1992-ci il nömrəsində erməni silahlı dəstələrinin tərkibində Yaxın Şərqdən çıxmışlarlaın, ASALA-nın Suriya və Livandan olan hərbçilərinin iştirak etdiyini təsdiqləmişdir.

News week 16 mart 1992-ci il tarixli sayında yazırdı: "...Ötən həftə Azərbaycan yenidən məzarlığa çevrilmişdi: qaçqınların və kəsilmiş ölü cəsədlər məscidin arxasında meyidxana kimi uzanırdı. Bunlar erməni hərbi birləşmələri tərəfindən 25-26 fevralda ələ keçirdikləri Dağlıq Qarabağın kiçik Xocalı yaşayış məntəqəsinin sadə azərbaycanlı kişiləri, qadınları və uşaqları idi".



"Time" 16 mart 1992-ci il tarixli sayında yazırdı ki, Xocalı şəhərində gürünməmiş dəhşətli bir şey baş verir. Əksəriyyəti eybəcər hala salınmış ən azı 200 azərbaycanlının meyidi Dağlıq Qarabağ erməni şəhərdən qonşu rayonlara dəfn olunmaq üçün daşınırdı.

"The İnderpendent" (London) 12 iyun 1992-ci il tarixli nömrəsində 15 nəfərlik istintaq qrupunun rəhbəri, dövlət prokuroru Aydın Rəsulova istinadən yazırdı ki, Xocalı qırğınında 600 nəfərin ölməsi minimum rəqəmdir. Hesabatında bildirilib ki, 470-500 nəfər Xocalıda, 650-700 nəfər çayların yaxınlığında və yollarda, 85-100 nəfər isə Naxçıvanın kəndi ətrafında həlak olub .

Hadisə yerində olan İngiltərənin "Fant men nyus" teleşirkətinin jurnalisti R.Patrik yazmışdır: Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyəti heç nə ilə haqq qazandıra bilməz.

Xocalı sakinləri 366-cı alayın şəhərin ələ keçirilməsinə kömək etdiyinə əmindirlər, çünki onların jurnalistlərə dediklərinə görə, ən azı 40 ədəd zirehli maşın onları üç tərəfdən mühasirəyə almışdı. Onlar israr edirlər ki, erməni hərbçilərinin o qədər zirehli maşını yoxdur. Çingiz Mustafayevin keçən cümə günü lentə aldığı meyitlər olan ərazi Xocalının şərqində Əsgəranla Naxçıvanik arasında, Xocalı sakinlərinin Ağdama getmək üçün istifadə etdiyi xilas yolunda yerləşirdi. Hücumdan sağ qurtaran 40 yaşlı Xocalı sakini mühasib Aleq Əliyevin söylədiyinə görə, xilas olmağa çalışan böyük bir kütlə meşədən boş bir sahəyə çıxan kimi pusquda duran azı iki zirehli döyüş maşınının pulemyot silahlarının atəşinə məruz qaldı. "Onlar fikirləşirdilər ki, artıq təhlükəsiz yerə çatıblar. ... Onlar Ağdamdan bir qədər aralıda idilər. Lakin onların hamısı öldürüldü". Ç.Mustafayev ərazidə 100-dən artıq meyit saydığını söylədi. Videolentdə onlarla qadın və uşaqların cəsədi göstərilirdi, bəziləri başlarından vurulmuşdu. Paltarları dağınıq halda idi ki, bu da onların axtarışa məruz qaldığını göstərir. Jurnalistin bir şahidin ifadəsinə istinadla dediyinə görə, qızıl və pul axtaran hərbçilər silahlarını köməksiz vəziyyətdə yerə uzanmış yaralı şəxslərin başlarına tuşlayırdılar. Onlardan qiymətli əşyaları tələb olunur və sonra öldürülürdü. Yaxın məsafədən açılan atəşin nəticəsi olan çoxsaylı baş yaralarını bununla izah etmək olar. Ç.Mustafayev bazar ertəsi əraziyə qayıtdıqda iki cəsədin başının dərisinin soyulduğunu və ölü qadının üzünün bir hissəsinin kəsildiyini gördüyünü deyir. O, meyitlərin eybəcər hala salınmasının azərbaycanlıları qorxutmaq məqsədilə edildiyini və ya güman ki, əsgərlərin fəal şəkildə insan öldürdüklərini göstərmək üçün cəsədlərin kəsilmiş hissələrini öz komandirlərinə apardıqlarını söylədi.

"Pravda" qəzetinin 7 mart 1992-ci il tarixli yazısına isə oxucuların qiymət verməsi daha doğru olardı. ...Şəhər rəhbəri Elman Məmmədov bir neçə saat ərzində 22 qohumunu itirdi, onların arasında anası da var. O söyləyir ki, mühasirədə olan Xocalı əvvəlcə ağır artilleriya atəşinə tutuldu. Şəhərə dörd tərəfdən raketlər, tanklar, zirehli və piyada döyüş maşınlarından fasiləsiz olaraq atəş açılırdı. Saatlarla davam edən artilleriya zərbələri nəticəsində hər şeyin dağıdılması və yandırılmasından sonra zirehli texnikanın dəstəyi ilə erməni silahlıları hücuma başladı. Şəhərin bəzi sağ qalan müdafiəçiləri və mülki əhali buz bağlamış çayın ətrafında yerləşən meşəyə üz tutdu. "Bizim dəstə bütün gecə boyunca qadınlar, uşaqlar, yaşlılar və yaralılar da daxil olmaqla meşə boyunca hərəkət etdi. Səhərə yaxın meşəni tərk etmək üzrə idik - qarşıda Naxçıvanik vardı. Burada biz yaxın məsafədən pulemyot və avtomat silahlardan atəşə tutulduq. Onlar amansız şəkildə taqəti tükənmiş insanlara atəş açdılar. Xeyli sayda həmvətənim, dost və qohumlarım orada həyatını itirdi. Yeddi yoldaşımla birlikdə avtomat silahlarla onları müdafiə etməyə çalışırdıq. Lakin əbəs yerə. Hər tərəfdən əlaqə kəsilmişdi. 12 saat ərzində biz atəş səbəbindən əlimizi belə qaldıra bilmədik, qarlı dərədə qaldıq", - deyə Məmmədov bildirdi.

Xocalı şəhərinin prokuroru Atakişi Atakişiyev deyir: "Şəhər yer üzündən silindi. Uzun müddət ümid etdiyimiz kömək gəlmədi".

Etnik münaqişəyə cəlb olunmaq istəmədiyindənYuri Yaxnoviç, Aleksey Boqdanov, Pavel Antipin və Pavel Zuyev 366-cı alayı tərk etmişlər.Onlardan biri-Aleksey Boqdanov bildirmişdi ki,-"Alayın bir çox zabitləri, demək olar ki, bütün gizirləri və əsgərlərinin bəziləri ermənilərdir. Onlar bölükdən axşam döyüş üçün tam təchiz edilmiş piyada maşınlarını götürə və səhər "boş" vəziyyətdə geriyə qayıda bilərlər".

Bu faktlar bir daha sübut edir ki, Azərbaycanın Xocalı şəhərində törədilmiş cinayətlər təsadüfi deyil, Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsidir. Xocalıdakı mülki insanların məqsədyönlü qırğını, sadəcə, azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlmişdi. Beynəlxalq hüquqa görə belə hərəkətlər "soyqırımı" anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən bu cür tanınmalıdır. Xocalı faciəsi təkcə Azərbaycan xalqına qarşı deyil, bəşəriyyətə qarşı yönəlmiş müharibə cinayətidir. Bu cinayəti törədənlər mühakimə olunmalı və cəzalandırılmalıdır. Həmin vaxt Azərbaycanda olmuş xarici jurnalistlərin gözləri ilə gördükləri, yaxud hadisə şahidlərinin dedikləri əsasında yazdıqları materiallar da ədalət mühakiməsi üçün təkzibedilməz sübutlar ola bilər.

Türkiyə hökuməti Xocalıda törədilmiş soyqırımı aktını qətiyyətlə pisləmişdi. Türkiyə Cümhuriyyəti Xarici İşlər Naziri Hikmet Çetin Ankarada türk jurnalistlərinə Türkiyə hökumətinin ölkənin ərazisi üzərindən Ermənistana və Azərbaycana uçan bütün təyyarələrdən yerə enməyi tələb edəcəklərini və yoxlanılacaqları barədə qərar qəbul olunduğunu bildirmişdi.

Azərbaycan Radiosunun məlumatına görə Türkiyənin Ankara, İzmir, İqdir və b. şəhərlərində Azərbaycanla həmrəylik mitinqləri keçirilmişdir.

Xocalıdakı soyqırımı ört-basdır etmək üçün ermənilər meyidləri yandırmış, sağ qalanlara işgəncələr verimişlər. Əlimizdə olan sənədlər Xocalı ərazisində - Xanabadla Daşbulaq kəndləri arasında ilk ...səyyar ölüm ocaqları" fevralın 28-də təşkil olunduğu, bu prosesdə 366-cı alayın komandanı Yuri Zarviqarovun əsgər və zabitlərinin iştirak etdiyinə şəhadət verir. Birinci dəfə 46 meyid yandırılıb.Ertəsi gün 28 uşaq və hamilə qadının meyidlərindən tonqal qalanmışdır.1988- ci ildən 1989-cu ilədək Çuvaşiyanın Çeboksari şəhərindəki Çapayev qəsəbəsində yaşayan və V.İ.Çapayev adına zavodda çalışan Akop Arakilov ("Alazan" raketləri satırdı) 1998-ci ildə Parisdə nəşr etdirdiyi ...Qarabağ qeydləri..." kitabında yazır ki, "...Meyidləri yandırmaq haqqında təsəvvürüm yox idi. Mən zavodda işləyərkən yanıma gələnlər danışırdılar ki, Xocalıda qəbiristanlıq deyilən ərazi yoxdur...Dəfn olunmuş adamları... gecə çaqqallar və itlər eşib çıxarırdılar. Hərbi həkim Sambat Mirzoyanın tapşırığı ilə meyidlərin yığılıb yandırılması qərara alındı... Mən..."Alazan" üçün zavoda gələn zabitə sual verdim: Bəs yaralılar? Bəs əsirlər? Zabit Çebotaryan adlı ellim mənə anlatdı ki, yaralılar da öldürülmədən tonqallara atılır. Bundan sonra mən daha zavodda qala bilmədim...Ermənilər və Ermənistanı, Dağlıq Qarabağı bir daha görməmək üçün oranı tərk etdim".

*(Davamı var)*